# Müstəqil Azərbaycanın qurucusu

***Tarixin taleyüklü məqamlarında vətəni ağır sınaqlardan çıxarmaq vəzifəsi böyük tarixi şəxsiyyətlərin üzərinə düşür. Belə tarixi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir.***

Ötən əsrin 90-cı illərinin əvvəllərində, ölkəmiz dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qaldığı bir vaxtda ümummilli liderimiz olmasaydı, indi Azərbaycan adlı məmləkət də olmazdı.

Ulu öndərimiz 1969-cu ildə respublika rəhbərliyinə gəlişi ilə ölkədəki tənəzzül prosesinin qarşısını alaraq inkişafa nail olmuşdusa, 1993-cü ildə müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycanı fəlakətlərdən xilas edərək demokratik, hüquqi və sürətlə inkişaf edən dünyəvi dövlətə çevirmişdir. Ulu öndərimizin müdrikliyi, qətiyyəti, iradəsi sayəsində dövlət müstəqilliyimiz sarsılmaz və dönməz olmuşdur. Ümummilli liderimiz müstəqil dövlət qurmaqla yanaşı, eyni zamanda azərbaycanlıları birləşdirən milli təlimi - Azərbaycançılıq ideologiyasını da yaratmışdır.

Bu gün hər bir azərbaycanlı fəxrlə deyir ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur. Bütün ruhu, varlığı ilə öz xalqına, elinə-obasına bağlı olan ümummilli lider bir-birinə zidd olan siyasi quruluşlarda fəaliyyət göstərsə də, həmişə xalqını fikirləşmiş, onun gələcək müstəqilliyi naminə çalışmışdır. "Azərbaycanın dövlət müstəqilliyi sarsılmaz və dönməz olacaqdır" deyən ulu öndər Heydər Əliyev bütün həyat və fəaliyyətini ölkəmizin müstəqilliyinə, xalqımızın rifahına həsr etmişdir.

Həyatımızın hər anı üçün müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevə borcluyuq.

Bizim nəsil xoşbəxtdir ki, ulu öndərin zamanında yaşamış və işləmişik.

**Nazim MUSTAFAYEV,**
**rayon ağsaqqallar şurasının sədri.**

# Məktəbdə şifahi xalq ədəbiyyatı günü

***Qəbələ şəhər 3 nömrəli tam orta məktəbində şifahi xalq ədəbiyyatı nümunələrinin şagirdlərə öyrədilməsi, sevdirilməsi üçün dərslərdən əlavə də tədbirlər təşkil olunur.***



Aprelin 29-da şifahi xalq ədəbiyyatına həsr olunmuş növbəti tədbiri məktəbin direktoru Ədilə Əliyeva açmışdır. Söz Azərbaycan dili və ədəbiyyat müəllimi, tədbirin təşkilatçısı Vəfa Alxasova verilmişdir.

Müəllim bildirmişdir ki, Azərbaycan şifahi xalq ədəbiyyatı qədim bir tarixə malik bədii söz xəzinəsidir. Xalqımızın min illər ərzində düzüb qoşduğu zəngin bədii nümunələr, bayatılar, atalar sözləri, tapmacalar, lətifələr, əfsanələr, nağıllar, dastanlar və sair ağızdan-ağıza keçərək əsrlər boyu yaşamış, dövrümüzə qədər gəlib çatmışdır.

Şifahi xalq ədəbiyyatının əsas xüsusiyyəti xalqın həyatı, tarixi ilə bağlı olmasıdır. Bu ədəbiyyat nümunələrində xalqın həyatında baş verən ən həssas hadisələr öz əksini tapır. Şifahi xalq ədəbiyyatı insanlarda mərdlik, qəhramanlıq, Vətənə məhəbbət, insanpərvərlik, əməksevərlik və sair kimi nəcib keyfiyyətlər tərbiyə edir. Bu xüsusiyyətlərinə görə şifahi xalq ədəbiyyatını gənc nəslə öyrətməliyik və sevdirməliyik.

Sonra məktəbin rus bölməsinin VII[a] və III[a] sinif şagirdlərinin ifasında Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələri Azərbaycan və rus dillərində səsləndirilmiş, bayatı deyişmələri, folklor rəqsləri nümayiş olunmuşdur.

**Zəhra ALXASLI,**
**məktəbin VII[a] sinif şagirdi.**
**İlkin Vəlizadə (foto).**

# Mübarək Ramazan ayı başlayır

Bu il hicri-qəməri tarixi ilə Ramazan ayı miladi tarixi ilə may ayının 6-da başlayır.

Islamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə "on bir ayın sultanı" da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani Kərim nazil olmuşdur. Həmin gecəyə "qədir" və ya "ehya" gecəsi deyilir. Qədir gecəsinin konkret olaraq hansı günə təsadüf etdiyi bilinmir. Bununla bağlı müxtəlif rəvayətlər vardır. Amma ümumi fikir belədir ki, qədir gecəsi Ramazan ayının son on gecəsindən biridir, həm də tək günün gecəsidir. Islamşünasların fikrincə, bu gecə Ramazan ayının 19, 21, 23, 25, 27-sinə təsadüf edir. Müqəddəs Qurani Kərimin "Qədir" surəsində qədir gecəsi haqqında belə yazılmışdır: "Biz bu gecə həqiqətən qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aydan da qüdrətlidir, mələklər aşağı enərək, Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür".

Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənməyincəyə qədər yeyib-için, sonra gecəyə kimi orucunuzu tamamlayın".

Ramazan ayı orucluq, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması dövrüdür. Insan bu ayın dua və ibadətləri ilə eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun tərəqqisi, Allaha tərəf pərvaz etməsidir.

Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Oruclu adam sürmə çəkməməli, ətirlənməməli, tütün, gül iyləməməli və orucu pozan digər hərəkətlərdən imtina etməlidir. Orucluq dövründə insan dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu vaxt şeytan onun qəlbinə yol tapa bilmir. Peyğəmbərimiz (S.Ə.S) buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar.

Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

Orucluğun başa çatdığı gün Fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü öncəsi hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.

Azərbaycan Respublikası Milli Məclisinin 27 oktyabr 1992-ci il tarixdə qəbul etdiyi "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Ramazan ayı başa çatdıqdan sonra orucluq bayramı dövlət səviyyəsində qeyd olunur və qeyri iş günü sayılır. Ramazan bayramı bu il iyun ayının 5-i və 6-na təsadüf edir.

Ramazan ayınız mübarək, əziz müsəlmanlar.

# Pasxa bayramı qeyd olunub

Bu günlər xristian dünyası müqəddəs Pasxa bayramını qeyd edir. Qəbələnin Nic qəsəbəsində yaşayan xristian udilər də aprelin 28-də Pasxa bayramını qeyd ediblər. "Cotari" kilsəsində təşkil olunan bayram mərasimində Alban-Udi Xristian dini icmasının üzvləri və xristianlarla birlikdə qəsəbənin müsəlman sakinləri də iştirak ediblər.



Mərasimdə dini icmanın rəhbəri Robert Mobili, kilsənin keşişi Rafik Danakari və icmanın üzvləri çıxış edərək Pasxa bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətin udilərə və digər azsaylı xalqlara olan diqqət və qayğısından danışıblar. Çıxış edənlər rayonda udilərə qarşı heç bir ayrı-seçkiliyin olmadığını qeyd ediblər. Onlar Nic kilsəsinin əsaslı şəkildə bərpasını ölkədə tolerantlığa gözəl nümunə olduğunu səsləndiriblər.

Mərasim zamanı kilsədə şamlar yandırılıb, dualar oxunub.

Dini ayinlərin icrasından sonra kilsənin həyətində udilərin qədim "Kala Axsibay" bayramı qeyd olunub. Bayram tədbirində udi xalqının qədim ənənəsi canlandırılıb. Udi dilində ifa olunan mahnılar, hazırlanan müxtəlif milli yeməklər və şirniyyatlar hamıda xoş əhval-ruhiyyə yaradıb.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra öz dini bayramlarını qeyd etməyə başlayan udilərin 2002-ci ildə "Cotari" məbədi təmir olunaraq istifadələrinə verilib. Hazırda tolerantlığın kiçik modeli hesab edilən Nic qəsəbəsində üç kilsə, iki məscid var.

**"Qəbələ"**

# Təqdimat mərasimi keçirilib

Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin "Natavan klubu"nda həmyerlimiz, gənc yazar Rəsad Mahmudoğlunun "Yanlış ünvan" povestinin təqdimatı keçirilib.

Tədbirə qatılan ədəbiyyat nümayəndələri çıxışlarında müəllifin yaradıcılıq potensialından söz açıblar. ADPU-nun filologiya fakültəsinin dekanı, professor Mahirə Nağıqızı bir zamanlar tələbəsi olmuş Rəsad Mahmudoğlunun yazdığı povest haqqında xoş sözlər söyləyib. Xalq artisti Eldost Bayram, sair-pedaqoq Oqtay Rza, kikboksinq üzrə dünya çempionu Araz Musayev və digər qonaqlar çıxış edərək povest haqqında öz ürək sözlərini bildiriblər.

# Nazirlər Kabineti Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi ilə əlaqədar qərar verib

Nazirlər Kabineti "Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi altına düşən torpaqları dövlət ehtiyacları üçün alan orqanın müəyyən edilməsi barədə" qərar verib.



AZƏRTAC xəbər verir ki, Qərara əsasən Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi altına düşən torpaqların özgəninkiləşdirilməsi ilə əlaqədar həmin torpaq sahələrini dövlət ehtiyacları üçün alan orqan "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti müəyyən edilib.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti həmin torpaq sahələrinin dövlət ehtiyacları üçün alınması ilə bağlı hazırlıq tədbirlərini "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirməli və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər təqdim etməlidir.

Qərarın icrasına nəzarət Nazirlər Kabineti Aparatının Regionların inkişafı, kənd təsərrüfatı və ekologiya məsələləri şöbəsinə həvalə olunub.